Teatrlarımız virtual dünyada

# Sumqayıt teatrı 51-ci mövsümünü başa vurdu

**Teatr mədəniyyət daşıyıcısı olduğu kimi, həyatın özünün əksidir. O, hər kəsi düşündürür və insanların yaşam tərzini janr süzgəcindən keçirib komediyadan tutmuş faciəyə qədər ya göz yaşı içində, ya da gülüş qədər məna çalarları ilə insanlara ötürür.**







71 yaşlı Sumqayıtın taleyində 51-ci ömrünü yaşayan Sumqayıt Dövlət Dram Teatrı bu illərdə öz sözünü deyib və üzərinə düşən missiyanı indi də uğurla davam etdirir.

Ötən əsrin 50-ci illərindən qurulmağa başlayan Sumqayıt qısa bir zamanda böyük bir sənaye şəhərinə çevrildi. Tikinti meydanında zavodlarla yanaşı, mədəniyyət ocaqlarının da inşasına başlandı. Onların içərisində Umummilli Liderin təşəbbüsü ilə tikilən mədəniyyət saraylarından biri də Sumqayıt Dövlət Dram Teatrı (həmin dövrdə o, H.Ərəblinskinin adını daşıyırdı) oldu. Yarım əsrlik bir zaman kəsiyində şəhər sola və sağa genişlənsə də, yenə də həmin möhtəşəm teatr binası ərazi əhəmiyyətini itirmədi.

Bu gün şəhərdəki yeniliklərdən biri də teatr binasına göstərilən qayğıdır. Sumqayıt Dövlət Dram Teatrının binası istifadəyə verildiyi yarım əsrdən artıq zaman kəsiyində əsaslı təmir edilməmişdi. Ölkə rəhbərinin tapşırığı ilə binada təmir işləri aparıldı. Bütün mühəndis-texniki qurğular tamamilə yenidən quruldu. 500 yerlik tamaşa və 100 yerlik akt salonu ən müasir avadanlıqlarla təchiz olundu. Burada tamaşaları bədii və texniki cəhətdən yüksək səviyyədə təqdim etmək üçün 360 dərəcə hərəkət edən səhnə, müasir akustika, işıqlandırma sistemləri quraşdırıldı.

Teatrın interyerinin daha cəlbedici görünməsi üçün milli memarlıq ənənələrindən geniş istifadə edildi. Bütün xidməti, dekorasiya və qrim otaqları müasir üslubda tərtib olundu, mebellər tətbiqi sənətin qədim növü olan oyma üsulu ilə işlənib hazırlandı. Teatrın köhnə parket döşəməsi sökülərək monolit dəmir-beton plitələrlə əvəzləndi, binadakı sütunlar isə mərmərlə üzləndi. Beləliklə, teatr binası tam şəkildə təmir edilərək sumqayıtlıların öhdəsinə verildi.

Son bir neçə ildə teatrın repertuarı da genişləndi. 51-ci mövsümünə ötən ilin sentyabrında start verən teatr görkəmli ədib Cəfər Cabbarlının "Solğun çiçəklər" pyesini repertuara daxil etdi. Bura tanınmış rejissor Elşən Zeynallı dəvət edildi. Yaradıcılıq müxtəlif fikirliliyi, mübadiləni sevir. O səbəbdən də ayrı-ayrı üsluba malik rejissorların teatra dəvəti nəticədə daha uğurlu tamaşaların qoyulmasına rəvac verir. Məlumdur ki, C.Cabbarlının "Solğun çiçəklər"inə müraciət etməyən teatr yoxdur. Amma tamaşaya baxan mütəxəssislər də təsdiq edə bilərlər ki, Sumqayıt teatrının 51-ci mövsümünün açılışında göstərilən bu əsər hər kəsi heyran etdi.

Ötən mövsümü möhtəşəm yubileylər ili saymaq olar. İmadəddin Nəsimi ilə bağlı qeyri-adi ədəbi kompozisiyanın təşkili, dünya şöhrətli muğam ustası, xalq artisti Alim Qasımovun səhnədə çıxışı, Sumqayıtın yubileyi ilə bağlı dramaturq Əli Əmirlinin "Sevgilim, Sumqayıt" əsəri mövsümün başlanğıcından tamaşaçılar tərəfindən rəğbətlə qarşılandı.

Bu mövsümdə Azərbaycanın maarifpərvər yazıçısı, publisist və dramaturq Cəlil Məmmədquluzadənin yubileyinə töhfə olaraq ədibin "Danabaş kəndinin əhvalatları" povesti Əməkdar artist Namis Şirməmmədov tərəfindən səhnələşdirildi. Rejissor eyni zamanda dahi Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" komediyasına yeni həyat verdi.

Teatrın baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov Ə.Haqverdiyevin yubileyi ilə bağlı "Xortdanın cəhənnəm məktubları" və tanınmış teatrşünas, professor Aydın Talıbzadənin koronovirusla baqlı "Tubinot" əsərlərinin eksplikasiyasını hazırladı. Uzun müddət idi ki, teatr monotamaşaya müraciət etmirdi. Əslində bu janr maraqlı olmaqla bərabər, aktyorların potensial imkanlarının bütün rənglərinin üzə çıxmasına şərait yaradır. Bir saat ərzində təkbaşına, tərəf-müqabil olmadan, yalnız işıq və səs effektləri vasitəsilə və bədii dekorasiya ilə oyun qurmaq, tamaşaçının diqqətini çəkmək əsas şərtdir. Buna nəfəs, səs, enerji, fiziki dözüm, həm də plastika lazımdır. Gənc yazıçı Ülviyyə Heydərovanın "Uşaqlıq" monopyesini Xalq artisti Firudin Məhərrəmov gənc aktrisa İlahə Səfərova ilə hazırladı.

Təəssüflər ki, yalnız "Danabaş kəndinin əhvalatlarına" və "Uşaqlıq" monotamaşasına daxili baxış keçirildi. Dünyanı cənginə almış koronavirus pandemiyası teatrda məşqlərin dayandırılmasına səbəb oldu. Virtual repertuar planı tərtib edildi və "evdə qal, sağlam ol, tamaşa izlə" devizi ilə sosial şəbəkə üzərindən həftənin 5 günü onlayn tamaşalar təqdim edildi . Virtual repertuarda tarixi günlər, xüsusi bayramlar da unudulmadı və bunlar da onlayn tamaşalarda əksini tapdı.

Beləcə, teatr 51-ci mövsümünü başa vurdu.

Teatr canlı sənətdir. Burada aktyor tamaşaçının nəfəsini, baxışını, münasibətini öz üzərində hiss etməlidir, aktyorun ürəyinin döyüntüsü eşidilməlidir. Karantin şəraitinə uyğun olaraq çoxdandır o səsi eşitmirik. Amma əminik ki, bütün bəlalar kimi koronavirus təhlükəsi də aradan qalxacaq. Bu teatr ki var, bizi çox duyğulandıracaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2020.- 23 avqust.- S.5.